# HÖRMƏTLİ HƏMKARLAR



*22 may 2009-cu il tarixi Milli oftalmologiya üçün əlamətdar bir gün olmuşdur. Bu tarixdə Azərbaycan Respublikasının Prezidenti Möhtərəm İlham Əliyev cənabları akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzini açmışdır.*

*Ən müasir tədqiqi, diaqnostik və müalicə avadanlıqla təchiz olunmuş bu mərkəzdə respublikanın oftalmoloqları üçün həm görmə orqanının fiziologiya və patalogiyasının öyrənilməsi, göz xəstəliklərinin diaqnostikası və müalicəsinin yeni üsüllarla işlənilməsi, həm də effektiv təcrübi fəaliyyəti üçün yeni, misli görünməmiş imkanlar yaradılmışdır.*

*Lakin, elmi ocağın tərəqqisi, əməkdaşların təfəkkürünün və təcrübə fəaliyyətinin uğurlu inkişafı, dünya oftalmologiya cəmiyyəti ilə səmərəli əlaqələrinin saxlanılmasının zərüri şərtlərindən biri də açıq informasiya məkanının, xüsusi dövrü çap orqanının mövcüdluğudur. Burada oftalmoloqlar ən cəsarətli fikir və fərziyyələrini söyləməyə, tədqiqatların nəticələrini təqdim etməyə, həmkarlarının təcrübəsi ilə tanış olmağa, elmi mübahisələrini aparmaq imkanlarına malik olacaqlar.*

*Belə məkanı, milli oftalmologiyanın tarixində ilk dəfə olaraq nəşr edilən xüsusi dövrü çap orqanı - «Oftalmologiya» elmi- praktiki jurnalı yaratmalıdır.*

*Bu gün jurnalımızın ilk nömrəsini sizə təqdim edərək, ümidvarıq ki, səhifələrində dərc ediləcək gözəl elmi əsərlər jurnal üçün dünyada tanınmış dövrü nəşriyyatların arasında layiqli yer tutmağa imkan verəcək, Azərbaycan oftalmologiyası üçün isə dünyada şöhrət qazandıracaq.*

*Hörmətlə,*



*Baş redaktor E.Qasımov*